Azərbaycan. - 2025.- 6 sentyabr (№ 189).- S.1;7.

# Rusiyada digər millətlərə qarşı qeyri-insani davranışlar sərgilənir

## Bundan azərbaycanlılar da əziyyət çəkirlər

Yekaterinburqda baş verən qətl hadisəsindən bu günədək Rusiyada soydaşlarımıza, ümumən Azərbaycana qarşı olan dözülməz münasibətlər dediklərimizin bariz nümunəsidir. Rusiyanın gündə bir şəhərində, gündə bir ticarət şəbəkəsində, lap elə vətəndaşın yaşadığı mənzilinin içində "miqrant ovu" aparılır. Soydaşlarımız döyülür, söyülür, aşağılanırlar və sairə. Onlar əsassız olaraq narkotik alveri, terrorçuluğa dəstək kimi ağır ittihamlarla üzləşirlər. Bu cür hallar Rusiyanın demək olar ki, bütün şəhərlərində müşahidə olunur.

Digər tərəfdən, "Rusiya ruslar üçündür" şüarı ilə siyasətə atılan populist siyasətçilər islamofob mövqelər sərgiləyir və iddia edirlər ki, guya ölkədə iqtisadi vəziyyətin pisləşməsinə miqrantlar səbəb olurlar. Onların fikrincə, miqrantlar iş yerlərini tutaraq rusların kənarda qalmasına yol açırlar. Halbuki reallıq tamam fərqlidir. Miqrantlar əsasən rusların işləməkdən imtina etdiyi ən ağır və zəhmətli işlərdə çalışırlar.

Demokratiyanın iki üzü - ədalətin ikili sta

# Rusiyada digər millətlərə qarşı qeyri-insani davranışlar sərgilənir

## Bundan azərbaycanlılar da əziyyət çəkirlər

**Bir neçə aydır ki, bütün dünyanın gözü qarşısında gah gizlin, gah da nümayişkaranə şəkildə Rusiyada yaşayan və işləyən etnik azlıqlara, o cümlədən azərbaycanlılara qarşı təzyiqlər, qeyri-insani davranışlar, qeyri-qanuni tələblər davam etməkdədir.**



Yekaterinburqda baş verən qətl hadisəsindən bu günədək Rusiyada soydaşlarımıza, ümumən Azərbaycana qarşı olan dözülməz münasibətlər dediklərimizin bariz nümunəsidir. Rusiyanın gündə bir şəhərində, gündə bir ticarət şəbəkəsində, lap elə vətəndaşın yaşadığı mənzilinin içində "miqrant ovu" aparılır. Soydaşlarımız döyülür, söyülür, aşağılanırlar və sairə. Onlar əsassız olaraq narkotik alveri, terrorçuluğa dəstək kimi ağır ittihamlarla üzləşirlər. Bu cür hallar Rusiyanın demək olar ki, bütün şəhərlərində müşahidə olunur.

Digər tərəfdən, "Rusiya ruslar üçündür" şüarı ilə siyasətə atılan populist siyasətçilər islamofob mövqelər sərgiləyir və iddia edirlər ki, guya ölkədə iqtisadi vəziyyətin pisləşməsinə miqrantlar səbəb olurlar. Onların fikrincə, miqrantlar iş yerlərini tutaraq rusların kənarda qalmasına yol açırlar. Halbuki reallıq tamam fərqlidir. Miqrantlar əsasən rusların işləməkdən imtina etdiyi ən ağır və zəhmətli işlərdə çalışırlar.

İnsan itkisi ilə nəticələnən Moskva-Qroznı reysi ilə uçan təyyarənin vurulmasından çox keçməmiş, azərbaycanlıların polis tərəfindən amansızlıqla qətlə yetirilməsi artıq heç bir məntiqə, qanuna və insani dəyərlərə sığmayan faktdır.

Azərbaycanlı alimlərin, mədəniyyət və incəsənət xadimlərinin, adi iş adamlarının, hətta deputatın hava limanında yerli-yersiz incidilməsi, süründürməçiliyə məruz qalması, saxlanılaraq deportasiya edilməsi Rusiya tərəfindən ənənə halını alıb. Ölkəmizə qarşı təşkil olunan kiberhücumlar, Azərbaycanın ixrac etdiyi məhsullarda guya "zərərli maddələrin" tapılması və digər təxribat xarakterli addımlar heç bir halda müttəfiqlik münasibətlərinə uyğun gəlmir.

Ukrayna-Rusiya müharibəsi fonunda Rusiya Ukraynada Azərbaycana məxsus obyektləri vurur. Səfirliyimizə dəyən zərər, SOCAR-ın bazaları… Bunlar Rusiya tərəfindən Azərbaycana qarşı qəsdən törədilmiş hadisə kimi qarşılanır. Ötən ilin sonundan bu kimi qəbulolunmaz hərəkətlər nəticəsində hər iki ölkə arasında gərginlik artan xətlə davam edir. Rusiyanın Azərbaycana olan aqressiyası müttəfiqlik qaydalarına zidd davranışın əsaslı nümunəsidir.

Rusiya silahlı qüvvələrinin Kiyevdəki Azərbaycan səfirliyinin binasını hədəf alması əvvəlcədən planlaşdırılmış hadisə kimi qiymətləndirilir və daha əvvəl də dəfələrlə SOCAR-a məxsus obyektlər vurulmuşdu. Analitiklərin fikrincə, bütün bunlar geosiyasi xarakter daşıyır və Ermənistanla Azərbaycan arasında əldə olunan sülh razılaşmaları ilə bağlıdır.

Ötən ayın birinci ongünlüyündə Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən Vaşinqton görüşünün nəticələri sanki şimal qonşumuz üçün "soyuq duş" effekti yaradıb. Hadisələrin gedişindən məlum olur ki, rəsmi Moskva bunu gözləmirdi və başa düşdü ki, Cənubi Qafqazda təsir imkanları azalmaqdadır.

Ekspertlər bildirirlər ki, hüquqi baxımdan Azərbaycan-Rusiya arasında strateji müttəfiqlik haqqında müqavilə imzalanıb. Lakin, son ayların hadisələri fonunda, xüsusilə məlum təyyarə faciəsindən sonra Rusiyanın davranışlarını, orada yaşayan soydaşlarımıza qarşı təzyiqləri, muzdlu təbliğatçılar tərəfindən tirajlanan anti-Azərbaycan təbliğatını qətiyyən müttəfiqlik, qonşuluq münasibətlərinə aid etmək olmaz. Bütün bunlar olduqca xoşagəlməz hadisələrdir və sonunun necə olacağı daha çox Rusiyadan asılıdır.

Rusiya ilkin addımları atmalı, təyyarə məsələsini beynəlxalq hüquq çərçivəsində həll etməli, soydaşlarımıza qarşı təzyiqləri, kütləvi informasiya vasitələrində düşmənçilik təbliğatını dayandırmalıdır. Ədalət zəfər çalmalı, sağlam fikir qalib gəlməli, münasibətlər qaydasına düşməlidir.

Artıq 4-cü ildir ki, müharibə davam edir və hələ də Rusiyanın Ukrayna şəhərlərini dağıtmaqdan başqa nəzərəçarpacaq qələbəsi görünmür. Qərbdən əsaslı dəstək alan Ukrayna müdafiə olunur və müharibə uzanır. Bu da Rusiya iqtisadiyyatını və insan resurslarını məhvə doğru aparır. Avropa və ABŞ-nin Rusiyaya qarşı tətbiq etdiyi iqtisadi sanksiyalar, əhalinin onsuz da zəif olan sosial vəziyyətini gündən-günə ağırlaşdırır. İllik inflyasiya 11,13 faiz təşkil edir. Dollar rublu 100 faiz üstələyib. Rusiya Avropa qaz bazarının 26 faizini əlində saxlayaraq milyardlarla dollar gəlir qazanırdı. Bu gün bu rəqəm 5 faizdən də aşağı enib.

Müharibə dövründə oliqarxların övladlarının Avropa və Asiyanın məşhur istirahət mərkəzlərində əylənməsi, həmin məkanlardan paylaşdıqları foto və videolar sosial şəbəkələrdə geniş narazılıqla qarşılanır. Halbuki ön cəbhəyə göndərilən və ölümlə üz-üzə qalanlar əsasən milli azlıqlardır. Bu vəziyyət isə etnik tərkibli muxtar qurumlarda birmənalı qarşılanmır və ciddi narahatlıq doğurur.

Səfərbərlik zamanı gənclərin zorla döyüşə göndərilməsi, böyük itkilər bahasına kiçik bir şəhərin alınması kimi halların "uğur" kimi təqdim edilməsi, əslində, cəmiyyətin artan narazılığını daha da dərinləşdirir. Lakin Rusiya televiziyaları bu narazılıqları görməzdən gəlir və əsl problemlər ətrafında müzakirə aparmaq əvəzinə, yeni "düşmən obrazı" axtarışına çıxırlar. Klassik imperiya siyasəti yenidən işə salınır: əvvəlcə süni münaqişə yaradılır, qan tökülür, sonra isə Rusiya özünü "sülhməramlı" kimi təqdim edərək səhnəyə çıxır.

Rusiya hələ də keçmiş SSRİ respublikalarını müstəqil dövlətlər kimi qəbul etmək istəmir. Onlara yuxarıdan aşağı baxır, hərbi və siyasi təzyiqlər göstərir, bu ölkələrə hələ də özünün koloniyaları kimi yanaşır. Həyata keçirilən "Total təbliğat" və "total nəzarət" millətlərarası əlaqələrin parçalanmasına zəmin yaradır.

Rusiyanın hazırkı siyasətinə və aparılan müharibəyə etiraz olaraq ölkəni tərk edən tanınmış yazıçı Boris Akunin bir müsahibəsində deyib: "Bu gün Rusiya cəmiyyəti məsuliyyətli davranmalı, gələcəyə baxmalı və onu hansı fəlakətlərin gözlədiyini dərk etməlidir". Həqiqətən də Rusiya fəlakətə çox yaxın nöqtədədir. Bu fəlakəti önləmək üçün Kremlin yeni münaqişə ocaqları yaratmağa ehtiyac duyduğu açıq şəkildə hiss olunur. Təsadüfi deyil ki, Ermənistanda baş qaldıran revanşist meyillər də məhz Rusiyanın bölgədə həyata keçirdiyi siyasətin nəticəsidir. Ermənistan xalqının qəzəbi ilə hakimiyyətdən uzaqlaşdırılan Koçaryan-Sarkisyan cütlüyünün yenidən siyasi səhnədə görünməsi, mövcud hökuməti Qarabağın itirilməsində ittiham etməsi, bu proseslərin Moskvanın dəstəyi ilə yönləndirildiyini göstərir.

Bütün bu hadisələr bir daha sübut edir ki, Rusiya tərəfindən sərgilənən bu siyasət bölgədə sabitliyə deyil, qarşıdurmaya və etimad itkisinə xidmət edir. Əgər Moskva regional əməkdaşlığı və tərəfdaşlığı davam etdirmək istəyirsə, əvvəlcə müttəfiq olduğu ölkələrə qarşı bu cür düşmən yanaşmadan imtina etməlidir.

Azərbaycan postsovet ölkələri arasında stabil siyasət aparan, qonşularının geosiyasi, geoiqtisadi milli maraqlarına hər zaman hörmətlə yanaşan ölkədir və qonşularından da adekvat münasibət gözləmək haqqına malikdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*